| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 04.08.2022 |
| QEYDİYYAT NÖMRƏSİ | 3411 |
| ADI | Azərbaycan Respublikası Prezidentinin “Birləşmiş Millətlər Təşkilatının “İqtisadi, sosial və mədəni hüquqlar haqqında” Beynəlxalq Pakt üzrə Azərbaycan Respublikasının dördüncü dövri məruzəsinin hazırlanması və təqdim olunması barədə” 2018-ci il 5 fevral tarixli 3643 nömrəli, “Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018–2027-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” 2018-ci il 12 fevral tarixli 3660 nömrəli, “2018–2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” 2018-ci il 14 fevral tarixli 3672 nömrəli, “2018–2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” 2018-ci il 3 may tarixli 38 nömrəli, “Qeyri-neft sektorunda rəqabətqabiliyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında” 2018-ci il 19 sentyabr tarixli 497 nömrəli, “Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019–2023-cü illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” 2018-ci il 27 dekabr tarixli 852 nömrəli və “Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019–2025-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” 2019-cu il 29 aprel tarixli 1143 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Xalq Qəzeti (Dərc olunma tarixi: 05.08.2022, Nəşr Nömrəsi: 164), Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı (Dərc olunma tarixi: 04.08.2022), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31.08.2022, Nəşr nömrəsi: 8, Maddə nömrəsi: 912) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 04.08.2022 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQİ TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 010.180.010 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | 32202208043411 |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT | |

| | |
|---|---|
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | **05.08.2022** |

**Azərbaycan Respublikası Prezidentinin "Birləşmiş Millətlər Təşkilatının "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Pakt üzrə Azərbaycan Respublikasının dördüncü dövri məruzəsinin hazırlanması və təqdim olunması barədə" 2018-ci il 5 fevral tarixli 3643 nömrəli, "Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018–2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2018-ci il 12 fevral tarixli 3660 nömrəli, "2018–2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2018-ci il 14 fevral tarixli 3672 nömrəli, "2018–2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2018-ci il 3 may tarixli 38 nömrəli, "Qeyri-neft sektorunda rəqabətqabiliyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2018-ci il 19 sentyabr tarixli 497 nömrəli, "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019–2023-cü illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2018-ci il 27 dekabr tarixli 852 nömrəli və "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019–2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2019-cu il 29 aprel tarixli 1143 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında" 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2019-cu il 30 dekabr tarixli 911 nömrəli və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2020-ci il 12 may tarixli 1017 nömrəli fərmanlarının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

**1.** "Birləşmiş Millətlər Təşkilatının "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Pakt üzrə Azərbaycan Respublikasının dördüncü dövri məruzəsinin hazırlanması və təqdim olunması barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 fevral tarixli 3643 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, 2, maddə 247) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. doqquzuncu abzasdan "və Turizm" sözləri çıxarılsın;

1.2. onuncu abzasda "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin;

1.3. on beşinci abzasdan "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri çıxarılsın;

1.4. on yeddinci abzasdan "Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi" sözləri çıxarılsın;

1.5. iyirmi birinci və iyirmi ikinci abzaslar müvafiq olaraq iyirmi ikinci və iyirmi üçüncü abzaslar hesab olunsun və aşağıdakı məzmunda iyirmi birinci abzas əlavə edilsin:

"Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi";

1.6. iyirmi ikinci abzasda "Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası" sözləri "Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 fevral tarixli 3660 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, 2, maddə 263, 11, maddə 2287; 2019, 4, maddə 698, 5, maddə 909; 2021, 11, maddə 1235) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018–2027-ci illər üçün Dövlət Proqramı"nın 8-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 8.1.3-cü yarımbəndin "İcraçılar" sütunundan "Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, " sözləri çıxarılsın;

2.2. 8.4.8-ci yarımbəndin "İcraçılar" sütunundan ", Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri çıxarılsın.

**3.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 14 fevral tarixli 3672 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, 2, maddə 275; 2019, 5, maddə 877, 8, maddə 1065, 11, maddə 1377) ilə təsdiq edilmiş "2018–2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı"nın 5-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 5.1.2.1-ci və 5.1.2.2-ci yarımbəndlərin "İcraçılar" sütunundan ", VN" akronimi çıxarılsın;

3.2. 5.1.2.9-cu yarımbəndin "İcraçılar" sütunundan ", ƏMDK" akronimi çıxarılsın;

3.3. 5.2.6-cı yarımbəndin "İcraçılar" sütununda "SMPDK" akronimi "İN" akronimi ilə əvəz edilsin;

3.4. "Akronimlər" bəndindən "ƏMDK – Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri çıxarılsın.

**4.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 3 may tarixli 38 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, 5, maddə 977, 11, maddə 2287; 2019, 5, maddə 909) ilə təsdiq edilmiş "2018-2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı"nın 7-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.3-cü bəndin "İcraçılar" sütunundan "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi," sözləri çıxarılsın;

4.2. 1.5-ci bəndin "İcraçılar" sütununda ", Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri

"İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

4.3. 2.5-ci, 4.3-cü və 5.4-cü bəndlərin "İcraçılar" sütunundan ", Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri çıxarılsın;

4.4. 5.3-cü bəndin "İcraçılar" sütunundan ", Vergilər Nazirliyi" sözləri çıxarılsın və həmin bənddə "Maliyyə Bazarlarına Nəzarət Palatası" sözləri "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin.

**5.** "Qeyri-neft sektorunda rəqabətqabiliyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 sentyabr tarixli 497 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, 9, maddə 1882) 2.3-cü bəndində "Vergilər" sözü "İqtisadiyyat" sözü ilə, "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin və həmin bənddən "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin," sözləri çıxarılsın.

**6.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 dekabr tarixli 852 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, 12, maddə 2701; 2021, 6 (I kitab), maddə 606; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 31 may tarixli 3291 nömrəli Sərəncamı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019–2023-cü illər üçün Dövlət Proqramı"nın 7-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

6.1. 7.1.10.1-ci yarımbəndin "Digər icraçı qurumlar" sütununda "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

6.2. 7.2.4.3-cü və 7.3.1.2-ci yarımbəndlərin "Əsas icraçı qurum" sütununda "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə, 7.2.4.3-cü yarımbəndin "Digər icraçı qurumlar" sütununda "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin;

6.3. 7.2.4.4-cü yarımbəndin "Digər icraçı qurumlar" sütununda "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

6.4. 7.3.1.3-cü yarımbəndin "Əsas icraçı qurum" sütununda "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

6.5. 7.3.3.1-ci yarımbənddə "Digər icraçı qurumlar" sütunundan "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi," sözləri çıxarılsın.

**7.** Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 aprel tarixli 1143 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, 4, maddə 730; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 31 may tarixli 3297 nömrəli Sərəncamı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019–2025-ci illər üçün Dövlət Proqramı"nın "10. Tədbirlər Planı" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

7.1. 10.2.2-ci yarımbənddə "Digər icraçılar" sütununda "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

7.2. 10.2.4-cü və 10.6.4-cü yarımbəndlərdə "Digər icraçılar" sütununda "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

7.3. 10.9.4-cü yarımbəndin "Digər icraçılar" sütunundan ", Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri çıxarılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 4 avqust 2022-ci il
3411